# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





# "Fateh" yox, XİLASKAR!

## Qarabağı azad edən Müzəffər Komandan və qalib əsgər tarixə həqiqi adları ilə həkk olunmalıdır

**◆ Bu barədə düşünək**

**Qarabağ zəfəri tariximizi, gündəlik həyatımızı dəyişməklə yanaşı, leksikonumuza da xeyli işlək sözlər gətirdi. Dilimizdə "müzəffər", "qəhrəman", "qalib", "xilaskar" kimi şirin və qürurverici ifadələr daha tez-tez və fərəhlə işlədilməyə başlandı.**

### Erməninin yalan dəyirmanına bizim tökdüyümüz "su"lar...

Lakin bəzən mübaliğələrə vararaq elə səhv fikirlər, elə ifadələr səsləndiririk ki, bu ifadələrlə, sözlərlə birbaşa erməni dəyirmanına su tökmüş olduğumuzun fərqinə varmırıq.

Konkret olaraq "fateh" sözünü nəzərdə tuturuq. Bu günə qədər də parlaq zəfərimizdən bəhs edilərkən "Qarabağ fatehi", "Şuşa fatehi", "Xankəndi fatehi" kimi ifadələr eşidirik. Amma bu, tamamilə yanlış və ziyanlıdır.

"Fateh" sözünün izahlı lüğətdə dəqiq mənası verilib və özgə məmləkəti, ölkəni tutan, fəth edən, işğal edən şəxsə deyilir. Məsələn, Böyük İsgəndər, yaxud Konstantinopolu fəth edib Osmanlının paytaxtına çevirən Sultan Mehmet dünya fatehləridir. Siyahını genişləndirmək də olar, amma bu nümunələr də bəs edər ki, yumşaq ifadə etsək, "fateh" sözünün pafosuna uyaraq onun mənasına varmadan yersiz şəkildə işlətdiyimizin fərqində olaq.

Müzəffər Komandan və Azərbaycan əsgəri Ağdamı, Füzulini, Laçını, Cəbrayılı, Zəngilanı, Qubadlını, Kəlbəcəri, Şuşanı, Hadrutu, Xocalını, Ağdərəni, Əsgəranı, Xankəndini fəth etməyib, AZAD edib!

Onlar xilaskarlardırlar!

Qarabağı sahiblərinə qaytaran Müzəffər Ali Baş Komandan və qalib əsgər fəth edən deyil, doğma torpaqlarının xilaskarıdırlar!

Bəzən düşünülə bilər ki, "sözdür də, deyilir".

Amma belə deyil!

Biz xalqımıza məxsus torpaqları "fəth etdik" deməklə, onsuz da milçəkdən fil düzəldən hiyləgər ermənilərin əlinə əsassız, yalan arqument vermiş oluruq. Qarabağı "qədim erməni yurdu" kimi təqdim edən düşmən indi məhz bu cəfəngiyyata, uydurmaya söykənir, Azərbaycanın, guya, Qarabağı işğalından, fəthindən dəm vurur...

### Savadsızlıq, bilməzlik, yoxsa?..

Təəssüf ki, bu təxribatçı, bəli, məhz təxribatçı ifadə hərdən kitablara ad kimi qoyulur. Televiziyalarda, radiolarda dönə-dönə işlədilir, qəzetlərdə manşetlərə çıxarılır. Bu söz, onun ehtiva etdiyi yanlış məna beyinlərə yeridilir, şüurlara otuzdurulur.

Başqa təəssüfləndirici məqam isə zəfərimizin mahiyyətini təhrif edən, onunla bağlı səhv təsəvvür formalaşdıran bu sözün ziyalılarımız, salnaməçilərimiz, jurnalistlərimiz tərəfindən səsləndirilməsi, yazılmasıdır.

Gəlin özümüzə bir sual edək: Axı qədim torpağımızı, Azərbaycanın bir parçasını özümüz necə fəth edə bilərik?!.

Onda belə çıxır ki, biz hansısa başqa ölkəyə məxsus torpaqlara əl qoymuşuq?..

30 il işğal altında qalan torpaqlarımızı azad edən xilaskarımıza "fateh" demək nə dərəcədə doğrudur?

Bu, savadsızlıqdır, bilməzlikdir, yoxsa?..

Azərbaycan dili kifayət qədər zəngindir və lüğətimizdə bununla bağlı o qədər sinonimlər, ifadələr, sözlər var ki...

Əslində, elə təkcə "xilaskar" sözünün özü Qarabağı sahiblərinə qaytaranları tərənnüm edən ən düzgün, ən yerində işlənmiş sözdür!

Gəlin sözlərimizdə və fikirlərimizdə dəqiq olaq, zəfərimizə kölgə salınmasına imkan verməyək!

Qarabağı əsl sahiblərinə qaytaran xilaskarları öz adları ilə çağıraq!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*